**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ LƏZGİ ETNİK QRUPUNUN MUSİQİ MÜHİTİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Türkən Xəlil qızı Musayeva Özçelik**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq doktoru, professor
**Ceyran Emin qızı Mahmudova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, dosent
**İnara Eldar qızı Məhərrəmova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Güllü Həsən qızı İsmayılova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Aytən Rauf qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası.

Dissertasiya şurasının
sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
__________ **Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının
elmi katibi: sənətşünaslıq doktoru, dosent
__________ **Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
__________ **Aytac Elxan qızı Rəhimova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Əsrlər boyu Azərbaycanda müxtəlif azsaylı xalqların, etnik qrupların nümayəndələri qarşılıqlı anlaşma və dialoq şəraitində yaşamışlar. Müxtəlif sivilizasiyaların qovuşduğu bir məkan olan Azərbaycanda yaşayan hər bir millətə onun tarixinə, adət-ənənələrinə böyük hörmət və ehtiram göstərilmişdir. 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etməsi, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanılması, yeni inkişaf istiqamətlərinə doğru irəliləməsi və əhatəli surətdə təbliğat aparılması nəticəsində böyük miqyaslı işlər görülmüşdür. Prezident İlham Əliyevin 11 yanvar 2016-cı il tarixli sərəncamında deyildiyi kimi *"Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir"*[1].

Bu gün Azərbaycanın ən müxtəlif bölgələrində yaşayan azsaylı xaqların nümayəndələri öz dilini qoruyub saxlayır, mədəniyyət və incəsənətini inkişaf etdirir. Azərbaycanda məskunlaşan tat, talış, kürd, avar, saxur, ləzgi və digər azsaylı xalqların milli mədəni dəyərlərinin üzə çıxarılması, musiqi etnoqrafiyasının araşdırılması elmi-nəzəri və tarixi baxımdan aktuallıq kəsb edir. Eyni zamanda ölkəmizdə məskunlaşmış azsaylı xalqların və müxtəlif etnik qrupların mədəniyyətinin, folklorunun, etnoqrafiyasının və digər səciyyəvi cəhətlərinin öyrənilərək qorunması müasir etnomusiqişünaslıqda tədqiqata cəlb etdiyimiz mövzunun aktuallığını müəyyənləşdirir.

Azərbaycanın əsasən Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala bölgələrində kompakt şəkildə yaşayan ləzgilər çoxəsrlik mədəniyyətə malikdirlər. Azsaylı xalqların musiqi folklorunun bu gün Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirilməsi istiqamətində ləzgilərin mədəniyyəti və incəsənətinin araşdırılması, səciyyəvi cəhətlərinin üzə çıxarılması tədqiqat işinin əsaslandığı aktual tərəfdir.

---

[1] Beynəlxalq Humanitar Forumunun açılışında İlham Əliyevin nitqi / [Elektron resurs] / URL:https://president.az/articles/3310/print

Tədqiqatın istiqaməti əsasən ləzgilərin yaşadığı bölgələrə yönəldilmiş və folklor musiqisinin tarixi-nəzəri xüsusiyyətlərinin müəyyən ərazilər üzrə öyrənilərək üzə çıxarılmasına əsaslanmışdır.

Ləzgi azsaylı xalqının musiqi folkloru özünəməxsus janr və ifa xüsusiyyətləri ilə seçilir. Azərbaycanda yaşayan ləzgilərin etnoqrafiyası, onların folklorunun özünəməxsus cəhətlərinin araşdırılıb tədqiq edilməsi müasir dövrümüzün etnomusiqişünaslıqda böyük aktuallıq kəsb edir.

Ümumiyyətlə, 1990-cı illərdən başlayaraq Azərbaycan musiqişünaslığında folklorun regionlar üzrə öyrənilməsinə böyük maraq yaranmış, bu istiqamətdə bir çox araşdırmalar aparılmışdır. Bu nöqteyi-nəzərdən Azərbaycanda yaşayan ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikası, ləzgi folklorunun milli mədəniyyətimizin tərkib hissəsi kimi formalaşmasının tədqiq edilməsi bu mövzunun öyrənilməsinə aydınlıq gətirir. Özünəməxsus bədii-etnoqrafik, regional xüsusiyyətlərə malik ləzgi folklorunun araşdırılması musiqi folklorunun bölgələr üzrə toplanılmasının davamı olub, müasir dövrümüzdə yeni ictimai-iqtisadi şəraitdə, yeni istiqamətdə multikulturalizm ənənələri bucağı altında tədqiqini tələb edir.

Hər bir xalqın folkloru onun mənəvi yaradıcılığının təcəssümü, onun tarix boyu yığıb topladığı və qoruduğu bir xəzinədir. Azərbaycanda yaşayan ləzgilərin folklorunun öyrənilib araşdırılması, ləzgi xalq mahnı və rəqslərinin melodiya, lad-məqam və intonasiya nöqteyi-nəzərdən tədqiqi aktuallıq kəsb edir, bu sahənin xüsusi elmi-tədqiqat işinə cəlb edilməsini şərtləndirir.

Ləzgilərin folkloru, mədəniyyəti öz kökləri ilə tarixən uzaq əsrlərdən qaynaqlanır. Bu baxımdan Azərbaycanın müxtəlif bölgələrində yaşayan və say etibarilə ən böyük etnik qrup olan ləzgilərin yaşayış tərzi, adət-ənənələri, qədim mərasimləri, folklor musiqisinin ətraflı şəkildə araşdırılması bu mövzunun öyrənilməsini vacib edir. Buna görə ləzgi musiqi folklorunun tədqiq edilməsi üçün müəyyən yazılı qaynaqlar, elmi mənbələr araşdırılmalıdır. Müxtəlif tarixi mənbələrdə olan məlumatları, faktları cəmləşdirib ümumiləşdirdikdə, Azərbaycanda yaşayıb məskunlaşmış etnik qrupun folkloru haqqında təsəvvür yaratmaq mümkündür.

Azərbaycanda yaşayan etnik qruplardan olan ləzgilərin milli mədəniyyəti əsasən azsaylı xalqların tarixinə həsr olunmuş bir çox elmi-tədqiqat əsərlərində və kitablarda araşdırılmışdır.

Ləzgilər Rusiya Federasiyasının Dağıstan Respublikasında da məskunlaşmışdır və onların bir hissəsi XIX əsrin əvvəllərində Azərbaycan Respublikasına köçmüşlər. Bunu nəzərə alaraq, tədqiqat prosesində Rusiyada yaşayan ləzgilərin də tarixinə toxunulmuşdur.

Rus tarixçisi M.İ.İxilovun «Народности лезгинской группы»[2] ("Ləzgi qrupunun xalqları") adlı kitabında ləzgi etnik qrupunun tarixi və indiki dövrünün etnoqrafik tədqiqi verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun tərtib etdiyi "Azsaylı xalqların folkloru"[3],[4],[5] adlı çoxcildliyində ləzgi xalqının da xalq yaradıcılığı araşdırılmış və qədim adət-ənənələri göstərilmişdir.

Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının tərtib etdiyi "Azərbaycanın folklor paytaxtı Qusar: tövsiyə biblioqrafiyası"[6] adlı kitabı ləzgilərin mədəni irsinin təbliği və təşviqi məqsədilə tövsiyə kimi nəzərdə tutulmuşdur.

Q.C.Cavadovun "Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik)"[7] adlı kitabında ləzgilərin tarixi və etnoqrafiyası işıqlandırılmışdır.

S.A.Bədirxanovun «Литература азербайджанских лезгин: проблемы и перспективы развития»[8] ("Azərbaycan ləzgi

---

[2] Ихилов, М.М. Народности лезгинской группы / М.М.Илихов. – Махачкала: – 1967. – с. 262.

[3] Azsaylı xalqların folkloru. Birinci cild. / tərt. ed.. filologiya elmləri üzrə fəlsəfə doktoru Mətanət Yaqubqızı. – Bakı: Elm və təhsil, 2014. – 20 s.

[4] Azsaylı xalqların folkloru. İkinci cild / tərt. ed. A.Əhmədli, D.Əliyev. − Bakı: Elm və təhsil, − 2017, − 196 s.

[5] Azsaylı xalqların folkloru. Üçüncü cild / tərt. ed. S.Kərimova. − Bakı: Elm və təhsil, − 2017. − 400 s.

[6] Azərbaycanın folklor paytaxtı Qusar: tövsiyə biblioqrafiyası / tərt. ed. N.Tahirova. – Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanasının nəşriyyatı, – 2016. – 48 s.

[7] Cavadov, Q.C. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Tarix və müasirlik / Q.Cavadov. – Bakı: Elm, – 2000. – 264 s.

[8] Бедирханов, С.А. Литература азербайджанских лезгин: проблемы и перспективы развития / С.А.Бедирханов. – Махачкала: ИЯЛИ им. Г.Цадасы ДНЦ РАН, – 2014. – 224 с.

ədəbiyyatı: problemlər və inkişaf perspektivləri”) adlı kitabında ölkəmizdə yaşayan ləzgilərin tarixi araşdırılmışdır.

Ləzgi etnik qrupunun ən çox məskunlaşdığı ərazilərdən biri olan və qədim tarixi mənbələrdə adı çəkilən Qusarın tarixi, mədəniyyəti, etnoqrafiyası və folkloruna dair ən fundamental tədqiqat işi yazıçı-jurnalist Sədaqət Kərimovanın “Qusar, qusarlılar”[9] ensiklopedik toplusudur. Bu zəngin topluda S.Q.Kərimova həm yazıçı-publisist, həm də bir tədqiqatçı nöqteyi-nəzərindən çıxış edərək Qusarın etnoqrafiyası və mədəniyyətini, adət-ənənələrini, incəsənəti və folklorunu ətraflı şəkildə işıqlandırmışdır. İki dildə – Azərbaycan və ləzgi dillərində yazılmış bu fundamental topluda Qusarın tarixi, onun təbiəti, maarifi, məşhur alim və yazıçıları, incəsənəti və etnoqrafiyası, folkloru, ləzgilərin xalq adətləri haqqında çox maraqlı məlumatlar verilmişdir.

Ləzgi xalqının folkloru bir sıra filoloqlar və tarixçiləri də maraqlandırmışdır. Qusar ləzgilərinin bir sıra bayram mərasimləri tədqiqatçı K.Hacıyevin “Ləzgi xalqının milli-mədəni dünyagörüşünün bəzi elementlərinə dair”[10] (“О некоторых элементах национально-культурного мировидения лезгинского народа”) məqaləsində işıqlandırılmış, burada peşəpay, guni, alapex, vatspaqar kimi qədim el mərasimlərindən ətraflı söz açılmışdır. Bu elmi məqalələrdə ləzgi mədəniyyətinin mühüm bir hissəsini təşkil edən xalçaçılıq sənəti, aşıq dastanlarından da bəhs edilir.

Tədqiqatçı alim S.S.Həsənovun “Şarvili pəhləvan haqqında ləzgi epik hekayələrinin öyrənilməsinin əsas istiqamətləri”[11] (“Лезгинские эпические сказания о богатыре Шарвили – основные направления изучения”) elmi məqaləsində sırf nəsr şəklində qurulan ləzgi dastanı, eləcə də Şarvili haqqında mahnılar dair filoloji tədqiqatlar aparılmışdır.

Tədqiqatçı D.A.Əliyev Azərbaycanda yaşayan azsaylı xalqların

---

[9] Kərimova, S.Q. Qusar, qusarlılar (ensiklopedik toplu). – Bakı: Ziya, – 2011. – 703 s.

[10] Гаджиев, К.А. О некоторых элементах национально-культурного мировидения лезгинского народа / К.А.Гаджиев. – Баку: Мутарджим, – 2005. – 245 с.

[11] Гасанов, С.С. Лезгинские эпические сказания о богатыре Шарвили – основные направления изучения // Азербайджанские известия. – 2008. 15 ноября, – с.8.

xalq yaradıcılığının tədqiqi istiqamətində İsmayıllıda yaşayan ləzgilərin folklor ənənələrini araşdırmışdır[12].

Ləzgi folklorunun toplanıb nota salınmasında ləzgi xalqının nümayəndələri olan musiqiçilərin də böyük əhəmiyyəti olmuşdur. Onlar bəzi ləzgi xalq melodiyalarını toplayaraq nota köçürmüş və eyni zamanda mərasimlərdə ifa olunan musiqi alətləri haqqında müxtəlif məlumatları toplamışlar.

Milliyətcə ləzgi olan bəstəkar F.İ.Rəhimxanovun "Ləzgi xalq mahnıları və rəqsləri"[13] toplusu ləzgi folklorunun toplanıb nota salınmasında əhəmiyyətli mənbə kimi qeyd edilməlidir. Bu topluda nota salınmış folklor nümunələri ləzgi xalq mahnı və rəqslərinin qorunub saxlanılması istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Notoqrafiya sahəsində digər bir mənbə isə layihənin rəhbəri SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, professor F.Ş.Bədəybəyli, ideyanın müəllifi, tərtibçi və elmi redaktor sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor T.A.Məmmədovun "Azərbaycanda yaşayan xalqların 50 mahnısı"[14] adlı dərs vəsaitidir. Bu vəsaitdə digər azsaylı xalqlarla yanaşı, bir neçə ləzgi xalq mahnısı da toplanaraq nota köçürülmüşdür.

F.R.Nağıyev «Музыкальные инструменты лезгин»[15] ("Ləzgilərin musiqi alətləri") kitabında ləzgi xalq çalğı alətlərinin xüsusiyyətləri (quruluşu, səslənməsi, tembri və s.) haqqında məlumat vermişdir.

Ümumiyyətlə, müəyyən edilmişdir ki, Azərbaycanda azsaylı xalqların folklor mədəniyyətinin öyrənilməsi istiqamətində ləzgi xalqının tarixi və milli mədəniyyəti ilə bağlı araşdırmalar mövcuddur. Lakin bunlar daha çox ləzgi xalqının tarixi, mənşəyi, etnoqrafiyası, xalq yaradıcılığı və adət-ənənələri ilə bağlıdır. Bu tədqiqatlarda ləzgi xalq yaradıcılığının yalnız müəyyən tərəfləri işıqlandırılmışdır.

---

[12] Əliyev, D.A. İsmayıllı etnomühitindəki azsaylı xalqların folkloru: / fəlsəfə üzrə fəlsəfə doktoru dissertasiyası. / – Bakı, 2021. – 166 s.

[13] Rəhimxanov, F.İ. Ləzgi xalq mahnıları və rəqsləri (Лезги халкьдин - маниярни кьуьлер) [Notlar]: – Bakı: Azərbaycan nəşriyyatı, – 2008. – 168 s.

[14] Azərbaycanda yaşayan xalqların 50 mahnısı [Notlar]: – Bakı: Apostrof, – 2011. – 167 s.

[15] Нагиев, Ф.Р. Музыкальные инструменты лезгин / Ф.Нагиев. – Баку: Шур, – 2021. – 92 с.

Beləliklə, müəyyən olunmuşdur ki, ləzgi xalqının folklor musiqisi elmi-nəzəri cəhətdən əsaslandırılmış şəkildə araşdırılmamışdır. Eləcə də mərasimləri, xalq yaradıcılığının digər janrları, o cümlədən bayatıların poetik mətn xüsusiyyətləri, ləzgi xalqının mahnı və rəqslərinin melodiya, lad-məqam və intonasiya xüsusiyyətləri müqayisəli və sistemli şəkildə təhlil edilməmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanda yaşayan ləzgilərin musiqi folkloru, predmetini isə folklor nümunələrinin tədqiqi və təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan tədqiqat işinin əsas məqsədi ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikasının araşdırılması, ləzgi musiqi folklorunun Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi əhəmiyyətinin müəyyən edilməsidir. Məqsəddən çıxış edərək, aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur:

– Azərbaycan Respublikasında multikulturalizm ənənələrinin inkişafı kontekstində ləzgi musiqi folklorunun tarixi inkişafını araşdırmaq;

– Ləzgilərin daha çox məskunlaşdığı Azərbaycan ərazilərinin təbii-coğrafi mövqeyini və tarixini işıqlandırmaq;

– Etnik qrup olaraq ləzgilərin etnoqrafiyası və mədəni inkişaf dinamikasını öyrənmək;

– Qədim ənənələrə əsaslanan xalq mərasimlərinin tarixi köklərini aydınlaşdırmaq;

– Ləzgi etnik qrupunun folklor musiqisinin səciyyəvi xüsusiyyətlərini aşkar etmək;

– Musiqi folklorunun ümumi inkişaf panoramı fonunda janr xüsusiyyətlərini müəyyənləşdirmək;

– Ləzgi xalq mahnılarının və rəqslərinin tarixini, etimologiyasını tədqiq etmək;

– Bayatıların musiqili poetik mətn xüsusiyyətlərini göstərmək;

– Ləzgi folklorunda xalq mahnı və rəqslərinin spesifik melodik, lad-məqam və intonasiya xüsusiyyətlərini təhlil etmək;

– Azərbaycan xalq yaradıcılığı ilə ləzgi xalq mahnı və rəqslərinin oxşar və fərqli cəhətlərinə aydınlıq gətirmək;

– Ləzgi folklor musiqisinin Azərbaycan milli mədəniyyətində əhəmiyyətini müəyyən etmək.

**Tədqiqat metodları.** Təqdiqat işində ləzgilərin folklor musiqisini Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi müəyyənləşdirmək üçün tədqiqat üsulları sistemli, tarixi, müqayisəli və qarşılaşdırma təhlil metodlarına əsaslanır. Folklor nümunələri etnoqrafiya və etnomusiqişünaslıq sahələrindən irəli gələn tarixi və nəzəri metodlar baxımdan araşdırılaraq təhlil edilir. Bu məqsədlə, musiqi folklorunun araşdırılmasında mühüm əhəmiyyət kəsb edən rus musiqişünaslarından B.V.Asafyev[16], V.V.Vinoqradovun[17] və İ.İ.Zemsovskinin[18],[19] tədqiqatlarına əsaslanılmışdır. Azərbaycan musiqişünas-tədqiqatçılarından Ü.Ə.Hacıbəyli[20], M.C.İsmayılov[21], A.A.Abdullazadə[22], R.F.Zöhrabov[23], F.Ş.Əliyeva[24],[25], E.Ə.Babayevin[26], T.A.Məmmədov[27], A.İ.Nəcəfzadə[28],[29],

---

[16] Асафьев, Б.В. О народной музыке / Б.В.Асафьев. – Ленинград: Музыка, – 1987 – 248 с.

[17] Виноградов, В.С. Классические традиции иранской музыки. / В.С.Виноградов. – Москва: Советский композитор, – 1982. – 183 с.

[18] Земцовский, И.И. Народная музыка: история и типология / И.И.Земцовский. – Ленинград: ЛГИТМК, – 1989. – 187 с.

[19] Земцовский, И.И. Семасиология музыкального фольклора (методологические предпосылки). – Москва: Проблемы музыкального мышления, Музыка, – 1974, – с.177-206.

[20] Hacıbəyli, Ü.Ə.Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apostrof, – 2010. – 176 s.

[21] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

[22] Abdullazadə, G.A. Qədim və orta əsrlərin musiqi mədəniyyəti / G.A.Abdullazadə. – Bakı: Qartal, – 1996. – 290 s.

[23] Zöhrabova, L.R. Azərbaycan xalq rəqslərinin lad-məqam xüsusiyyətləri. Dərs vəsaiti. / L.R.Zöhrabova. – Bakı, Mars-Print, – 2013. – 124 s.

[24] Əliyeva, F.Ş. XX əsr Azərbaycan musiqi mədəniyyəti tarixinin qaynaqları / F.Ş.Əliyeva. – Bakı: Nurlan, – c.2. – 2005. – 420 s.

[25] Əliyeva, F.Ş. XX əsr Azərbaycan musiqisi: tarix və zamanla üz-üzə / F.Ş.Əliyeva. – Bakı: Elm, – 2007. – 314 s.

[26] Babayev, E.Ə. Ənənəvi musiqimiz. Müşahidələr və mülahizələr / E.Ə.Babayev. – Bakı: Elm, – 2000. – 116 s.

[27] Məmmədov, T.A. Azərbaycan aşıq sənəti. Dərslik. / T.A.Məmmədov. – Bakı: Apostrof, – 2011. – 648 s.

[28] Nəcəfzadə, A.İ. Azərbaycan çalğı alətlərinin izahlı lüğəti / A.İ.Nəcəfzadə. – Bakı: MBM, – 2004. – 224 s.

[29] Nəcəfzadə, A.İ. Etnoorqanologiya / A.İ.Nəcəfzadə. – Bakı: Ecoprint, – 2016. – 304 s.

Ə.İ.İsazadə[30] və C.E.Mahmudovanın[31], [32] müxtəlif istiqamətli elmi-nəzəri araşdırmaları və təhlilləri tədqiqatın metodoloji əsasını təşkil edir. Eləcə də, etnomusiqişünaslıq istiqaməti üzrə L.Ş.Hüseynova[33], F.X.Xalıqzadə[34], S.Y.Bağırova[35], İ.T.Köçərli[36], A.N.Quliyev[37], Ü.S.Əliyeva[38], K.H.Dadaşzadə[39] və J.E.Qulamovanın[40] xalq musiqisi və folklor sahəsində elmi-nəzəri müddəalarına istinad edilərək, onlardan bəhrələnilmişdir. Bu elmi əsərlərdə verilən təhlil metodları dissertasiyada sistemləşdirilmiş şəkildə tətbiq olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat işində verilən əsas müddəalar aşağıdakılardan ibarətdir:

– Azərbaycan milli mədəniyyətinin inkişafı kontekstində ləzgilərin folklor musiqisi araşdırılır və səciyyəvi xüsusiyyətləri üzə çıxarılır;

---

[30] İsazadə, Ə.İ. Musiqi folkloru. Müasir Azərbaycan incəsənəti və memarlığı. –Bakı: Elm, – 1992. – 224 s.

[31] Mahmudova, C.E. Azərbaycan xalq və bəstəkar mahnılarının mətn xüsusiyyətləri / C.E.Mahmudova. – Bakı: ADPU, – 2014. – 122 s.

[32] Mahmudova, C.E. Mahnının qoşa qanadı-poeziya və musiqi / C.E.Mahmudova. Bakı: Mars-Print, – 2013. – 244 s.

[33] Hüseynova, L.Ş. Mahnı diqqət mərkəzindədir // – Bakı: Musiqi dünyası, – 2000. №2 (3), – s. 3-9.

[34] Xalıqzadə, F.X. Üzeyir Hacıbəyli və folklor / F.X.Xalıqzadə. – Bakı:Şərq-Qərb, – 2014. – 276 s.

[35] Багирова, С.Ю. Проблемы мугамного формообразования: / автореферат дис. доктора философии по искусствоведению. / – Ташкент, 1984. – 20 с.

[36] Köçərli, İ.F. Azərbaycan etnomusiqişünaslığı üzrə oçerklər / İ.F.Köçərli. – Bakı: Elm və təhsil, – 2017. – 375 s.

[37] Quliyev, A.N. Azərbaycan Respublikasının mədəniyyət və incəsənətinin inkişafında Heydər Əliyev mərhələsi // "Azərbaycançünaslığın akrual problemləri" mövzusunda III Belnəlxalq elmi konfransın materialları, – Bakı: – 26 aprel, – 2012, – s.1-5.

[38] Алиева, У.С. Картинность в творчестве азербайджанских композиторов в контексте мировой музыкальной культуры: / автореферат дис. доктора искусствоведения./ – Баку, 2011. – 50 с.

[39] Дадашзаде, К.Г. Знаковая система дастана / К.Г.Дадашзаде. – Баку: Нурлан, – 2004. – 292 с.

[40] Quliyev, A.N. Azərbaycan Respublikasının mədəniyyət və incəsənətinin inkişafında Heydər Əliyev mərhələsi // "Azərbaycançünaslığın akrual problemləri" mövzusunda III Belnəlxalq elmi konfransın materialları, – Bakı: – 26 aprel, – 2012, – s.1-5.

– Ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikası aydınlaşdırılır;

– Azərbaycan Respublikasının ərazilərində ləzgilərin daha çox məskunlaşdığı təbii-coğrafi mövqeyinin onların milli mədəniyyətinin formalaşmasına təsiri müəyyənləşir;

– Ləzgi etnik qrupunun folklor musiqisinin istiqamətləri nəzərə çatdırılır;

– Qədim xalq mərasimlərinin xüsusiyyətləri üzə çıxarılır;

– Bayatılarda ləzgilərin həyat tərzinin və məişətinin ifadə olunması izlənilir;

– Ləzgi xalq mahnı və rəqslərinin melodiya, lad-məqam və intonasiya xüsusiyyətləri təhlil edilir;

– Azərbaycan Respublikasında multikulturalizm ənənələrinə əsaslanma və azsaylı xalqların milli dəyərlərin qorunması istiqamətində ləzgi etnik qrupun folklor musiqisinin xüsusiyyətləri araşdırılır və əhəmiyyəti müəyyənləşir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ləzgi azsaylı xalqının folklor musiqisi Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi, ilk dəfə olaraq xüsusi tədqiqat obyektinə çevrilmiş və dissertasiya səviyyəsində öyrənilmişdir. Tədqiqat işində ilk dəfə olaraq, ləzgi etnik qrupunun folkloru, etnoqrafiyası, xalq mahnıları və rəqslərinin melodik, lad və intonasiya xüsusiyyətləri təhlilə cəlb edilmişdir. Azərbaycanda ləzgilərin mədəniyyətinin inkişafında multikulturalizm ənənələrinə əsaslanmanın nəticəsində ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikasına təsiri müəyyən olunmuşdur. Musiqi folklorunun tədqiqi ilə yanaşı tarixi məqamlara da diqqət yetirilmiş və ləzgilərin daha çox məskunlaşdığı Azərbaycan ərazilərinin təbii-coğrafi mövqeyi, tarixi inkişafı işıqlandırılmışdır.

Tədqiqatda ilk dəfə olaraq, ləzgilərin çoxəsrlik mədəniyyətini nümayiş etdirən qədim adət-ənənələri, mifoloji inamları, bayram mərasimləri və etnoqrafiyası musiqişünaslıq elmi nöqteyi-nəzərindən təhlil edilir. Musiqi folklorunun tədqiqi ilə yanaşı tarixi məqamlara da diqqət yetirilir. Dissertasiya mövzusunun əsas istiqamətini ləzgi etnik qrupunun folklor musiqisinin araşdırılması təşkil etdiyinə görə, onların xalq mahnı və rəqsləri ətraflı şəkildə işıqlandırılmış və nəzəri təhlil aparılmışdır. Tədqiqat işində ləzgi xalq mahnı və rəqsləri

təsnifatlaşdırılaraq, geniş şəkildə təhlilə cəlb edilmişdir. Qeyd edək ki, ləzgilərin folkloru və musiqi nümunələri ilk dəfə olaraq, Azərbaycan xalq yaradıcılığı ilə müqayisəli şəkildə təhlil edilmiş və malik olduğu xüsusiyyətlər müəyyən olunaraq üzə çıxarılmışdır. Tədqiqat işində aparılan müqayisəli təhlillər ləzgi xalqının musiqi folklorunun öyrənilməsi tarixində ilk dəfə olaraq həyata keçirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiya işində əldə edilmiş nəticə və müddəaları ləzgi etnik qrupuna dair bir sıra elmi-nəzəri və tarixi məlumatlara əsaslandığı üçün musiqişünaslıq, etnomusiqişünaslıq, həmçinin musiqi folkloru sahəsində fəaliyyət göstərən tədqiqatçılar üçün elmi mənbə kimi faydalıdır. Dissertasiyanın müəyyən müddəaları və təhlilləri ləzgi etnik qrupun mədəni tarixinin və xalq yaradıcılığının ümumi mənzərəsinin yaradılmasında, eləcə də etnik qrupların folklor sahəsinin araşdırılması baxımından əhəmiyyətlidir. Eyni zamanda tədqiqatın materialları ali təhsil müəssisələrində musiqi folkloru və xalq yaradıcılığı, etnoqrafiya ilə bağlı fənlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas müddəaları və nəticələri beynəlxalq və respublika səviyyəli elmi konfranslarda edilən çıxışlarda, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə nəşr edilmiş məqalə və tezislərdə əks olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə həcmi ilə ümumi həcmi.** Dissertasiya işi "Mündəricat", "Giriş", iki "Fəsil", beş paraqraf, "Nəticə", "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" bölmələrindən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, "Giriş" 12 səhifə (17 172 işarə), I fəsil 26 səhifə (46 177 işarə), II fəsil 97 səhifə (136 663 işarə), "Nəticə" isə 9 səhifədən (14 075 işarə) ibarətdir. Tədqiqat işinin ümumi həcmi "İstifadə edilmiş ədəbiyyat siyahısı" və "Əlavələr" bölmələri istisna olunmaqla 144 səhifə və 214 087 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **I fəsli "Azərbaycanda multikulturalizm ənənələri kontekstində ləzgi xalqının mədəniyyətinin inkişafına bir nəzər"** adlanır və iki paraqrafdan ibarətdir.

**1.1. "Ləzgilərin daha çox məskunlaşdığı Azərbaycan ərazilərinin təbii-coğrafi mövqeyi, tarixi inkişafı"** adlı paraqrafda Azərbaycan Respublikasında multikulturalizm və tolerantlıq ənənələrinin qorunması, müxtəlif etnik xalqların mehriban dostluq və qonşuluq münasibətlərinə əsaslanan mühitdə yaşaması, ən əsası isə bu sahədə dövlət dəstəyinin olması və humanist siyasətin həyata keçirilməsi ölkəmizdə yaşayan azsaylı xalqların mədəni dəyərlərinin qorunmasını təmin edilməsindən bəhs edilir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin 15 may 2014-cü il tarixli Fərmanı ilə Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkəmizdə yaşayan müxtəlif millətlərin mədəniyyətlərinin və adət-ənənələrinin qorunması istiqamətində mühüm addım kimi dəyərləndirilə bilər.

Azsaylı xalqlara olan səmimi münasibətin nəticəsidir ki, Azərbaycanda kompakt şəklində yaşayan bir çox etnik qruplar mehribançılıq şəraitində yaşayaraq, qədim adət-ənənələrini, musiqi və digər folklor sahələrini qoruyub saxlayırlar.

Bu baxımdan ölkəmizdə yaşayan digər azsaylı xalqlarla və etnik qruplarla müqayisədə say etibarilə ləzgilər çoxluq təşkil edir. Azərbaycanın müxtəlif bölgələrində məskunlaşan ləzgilər əsasən Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala bölgələrində rast gəlinir. Həmin ərazilərin təbii-coğrafi mövqeyi və məişəti ləzgilərin həyat tərzinə də öz təsirini göstərmiş və onların zəngin folklorunun, xalq yaradıcılığının formalaşmasında mühüm amil olmuşdur. Ləzgilər uzun illər boyu azərbaycanlılarla sıx təmasda olmuş, onları etnomədəni bağlar bir-biri ilə bağlamışdır.

Ləzgilər öz mənəvi dəyərlərinə çox bağlıdır. Onlar adət-ənənələrini və müxtəlif bayram mərasimlərini saxlamağa müvəffəq olmuşlar. Qəbələ rayonunun Qəmərvan, Əmirvan, Qusar rayonunun Əvəcuq, Hil və s. kəndlərində azərbaycanlılar ilə birlikdə yaşayan ləzgilər qədim adət-ənənələrini və xalq yaradıcılıqlarını qoruyub saxlamışlar.

Ləzgilər ölkəmizin şimal-şərqində və Dağıstanın cənub-şərqində yaşayan etnik qrupdur. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən 2019-cu il statistikasına görə ləzgilər Azərbaycan əhalisinin 1.7 faizini təşkil edirlər və 2022-ci ildə verilən məlumata görə isə, Azərbaycanda onların sayı 178.000 nəfərdir[41]. Azərbaycanda etnik qruplara aid olan ləzgilər Qafqaz dilli xalqdırlar və onların dili – ləzgi dili, əlifbası – kirildir. Azərbaycanda ləzgi dilinin iki dialekti – Quba - Kusar, Kuzun dialekti yayılmışdır. Ləzgilərlə yanaşı bir sıra Qafqaz dilli xalqlar – avarlar, saxurlar, udinlər, buduqlar, qrızlar, xınalıqlar, yengiloylar da əsasən Azərbaycanın şimal-şərq və şimal-qərb rayonlarında məskunlaşmışlar[42].

Bir sıra tarixçilərin ehtimalına görə, ləzgilər antropoloji cəhətdən Qafqaz irqinə aiddir və mənşəyi Qafqaz albanları ilə bağlıdır. Ləzgilərin əcdadları hesab olunan leqlər Dağıstanla həmsərhəd bölgələrdə yaşayan dağıstandilli alban tayfası olmuşdur. Çünki Albaniya tayfalarının bir hissəsi türkdilli, digər hissəsi dağıstandilli olmuşdur.

**1.2. "Ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikası"** adlanır. Bu paraqrafda ləzgilərin etnoqrafiyası və mədəni inkişaf xüsusiyyətləri haqqında məlumat verilir. Ləzgilərin zəngin və çoxşaxəli folklora malik olması bu azsaylı xalqın milli mədəni irsinin öyrənilməsini şərtləndirir. Ləzgi xalqının etnoqrafiyası digər etnik qruplarla müqayisədə daha fərqlidir. Azərbaycan ərazisində yaşayan ləzgilərin sayına görə Şimali Qafqaz xalqları arasında ən geniş yayılan dil məhz ləzgi dilidir.

Ləzgi dili Şimali Qafqaz dil ailəsinin Dağıstan qrupunun ləzgi yarımqrupuna aiddir. Ləzgi dili XX əsrin əvvəllərinə qədər rus

---

[41]Beynəlxalq Humanitar Forumunun açılışında İlham Əliyevin nitqi / [Elektron resurs] / URL: https://president.az/articles/3310/print

[42] Etnik qrup / [Elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/Etnik_qrup

mənbələrində "küre dili" adlanırdı. Ləzgilərin yaşadıqları bölgədən asılı olaraq onların dili Küre, Axtı və Azərbaycanda ləzgilərin danışdığı Quba dialektinə bölünür. Bir sözlə Dağıstanda yaşayan ləzgilər küre və axtı dialektlərində, Azərbaycanda yaşayan ləzgilər isə Quba dialektində danışırlar. Qeyd etmək lazımdır ki, küre dialekti ləzgi dilinin ədəbi əsasını təşkil edir. Ləzgilərin daha bir üstün cəhəti onların həmişə kompakt şəkildə yaşamağa üstünlük vermələridir. Ləzgilərin folklorunda mərasimlər, epik və lirik növə aid nümunələr əsas yer tutur. Ləzgilərin mərasim folkloruna mövsum və məişət mərasimləri daxildir. Onu da qeyd edim ki, aparılan ekspedisiyalar zamanı Zaqatala, Quba, Qəbələ, İsmayıllı, Oğuz, Şəki və s. bölgələrdə yaşayan ləzgilər azərbaycanlılarla qaynayıb qarışdıqları üçün onların mədəniyyətlərinin çox hissəsi assimilyasiyaya uğramışdı. Məhz buna görə də onlar öz folklor nümunələrində ləzgi mahnılarını Azərbaycan dilində, yaxud da milli mahnılarımızı ləzgi dillərində tədbirlərdə ifa edirdillər. Lakin, Qusar rayonunun Əvəcuq və Hil kəndində yaşayan ləzgilər sırf öz mədəniyyətlərini, folklor musiqisinin qoruyaraq yalnız ləzgi dilində ifa edirdilər.

Ləzgi evinin əsas atributları xalça, sumax, toxuma əşyalarıdır. Gözəl naxışlı qədim qablar evin bəzəyidir. Divarlardan qılınc, xəncər, müxtəlif silahlar asılır.

Ləzgilərdə geniş yayılmış sənət növlərindən biri olan xalçaçılığın çox qədim tarixi vardır. Qusarda aparılmış arxeoloji qazıntılar nəticəsində məlum olmuşdur ki, ləzgilər hələ b.e.ə. V-I və eramızın I-II əsrlərində xalçaçılıq sənəti ilə məşğul olmuşlar. Ləzgi xalqının tarixən formalaşmış özünəməxsus geyim mədəniyyəti vardır. Ləzgi toylarında adətən kfil, daldam və zurna musiqi alətləri əsas yer tutur. Daha sonradan buraya çağan və sintezator da əlavə olunmuşdur. Həmçinin, tütək, balaban, tar, kamança kimi Azərbaycan xalq çalğı alətlərindən də istifadə olunur. Лахъут, lira musiqi alətləri ilə rastlaşmaq mümkündür. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Xalq Yaradıcılığı Paytaxtları" Proqramı çərçivəsində, 2016-cı ildə Qusar şəhəri "Azərbaycanın Folklor Paytaxtı" seçilmişdir. Bu proqram təbii ki, Azərbaycan xalqının milli-mədəni dəyərlərinin, adət-ənənələrinin və s. qorunması, təbliği və təşviqi məqsədilə baş tutub.

Dissertasiyanın **II fəsli "Ləzgi azsaylı xalqının folklor musiqisi Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi"** adlanır və üç paraqrafdan ibarətdir.

**2.1. "Ləzgi azsaylı xalqının folklor musiqisi"** adlanır. Bu paraqrafda ləzgi xalqının folklor yaradıcılığına daxil olan müxtəlif mərasimlər, xalq mahnıları, rəqs nümunələri araşdırılır. Hər xalqın tarixində mühüm rol oynayan mənbələr olduğu kimi, "Şarvili" eposu ləzgilərin folklorunda mühüm yer tutur. Ekspedisiyada söyləyicilərlə görüşü zamanı deyilən fikirlərə istinad qeyd edə bilərik ki, bu eposun e.ə. III-VI əsrlərdə yarandığı ehtimal olunur. Eposun da əsas mahiyyəti birliyi və azadlığı tərənnüm etməkdiir və əsl qəhrəmanlıq eposudur.

"Şarvili" eposu məzmun baxımından Azərbayan xalqının "Dədə Qorqud" dastanını xatırladır. Belə ki, Dədə Qorqud obrazına xas olan cəhətlər "Şarvili"nin əsas qəhrəmanı olan Aşıq Kasda da müşahidə olunur. Onu da qeyd edək ki, ləzgi dastanları Azərbaycan dastanlarından fərqli olaraq sırf nəsr şəklində qurulur.

Milli bayramlar ləzgilərin ən vacib adət-ənənələrindən biridir və onları hər zaman qoruyub saxlayırlar. "Dem" adlanan qədim mərasim ləzgi xalqının ənənələrini, mədəni dəyərlərini, folklorunu özündə cəmləşdirir. Ləzgilərin qədim mədəni köklərə bağlılığını təcəssüm etdirən "dem" xalq musiqisi ilə xoreoqrafik xüsusiyyətləri birləşdirən bir mərasimdir.

Ləzgi mərasimlərindən biri də "Manilər"dir. Əsl ləzgi dilini "Manilər" kimi heç bir folklor nümunəsi qoruyub saxlamamışdır. Heca vəznində yazılan "Manilər" dörd misradan ibarətdir. "Manilər" ayrı-ayrı hissələrdən ibarətdir və onların hər biri ləzgi dilində müxtəlif adlara malikdir: bayadar, bender, lirliyar, qudar və s. Mövzu baxımından ləzgi maniləri müxtəlif olur: tarixi-qəhrəmani, məhəbbət, vətən sevgisi, əməyin tərənnümü ilə bağlı yaranan manilər və s.

Ləzgilərin qədim mərasimlərindən olan "Peşapay" yağışı çağırma mərasimidir və onların yaşadıqları bir çox bölgələrdə geniş yayılmışdır. "Peşapay" teatr elementləri ilə verilən qədim bayramlardan biridir. "Peşapay" əsasən kişilərdən təşkil olunan tamaşa kimi təqdim olunurdu.

Digər bir mərasim "Quni" adlanır. "Quni" sözünün etimologiyası dəqiq deyil və onu çox vaxt ilahi varlığın adı ilə

bağlayırlar. “Peşapay”ın əksinə, burada əsasən qadınlar, kiçik yaşlı oğlan uşaqları iştirak edir. Ləzgilərin üstünlük təşkil etdiyi kəndlərdə “quni” gəzdirmək adəti geniş yayılmışdır.

“Mel” mərasimi isə əmək bayramıdır, bu bir növ könüllü iməcilik əhəmiyyəti daşıyır və eyni zamanda xalqın birliyinin ifadəsidir.

Ləzgi dilində “Yaran Suvar” adlanan Bahar bayramı da qədim bayram mərasimlərindəndir. “Yar” ləzgi xalqının kənd təsərrüfatı təqviminə daxil olan aylardan biridir və 21 martdan başlayaraq 4 aprelə qədər olan müddəti əhatə edir. Məhz konkret tarixə əsaslanması “Yaran suvar”ı bir növ mövsüm bayramı kimi şərh edir. Bu bayram Azərbaycan xalqının “Novruz bayramı” ilə analojidir.

Ləzgi mərasimlərinin əksər hissəsi teatr elementləri ilə bağlıdır. Belə mərasimlərdən biri “Vatsrakar”dır. Bu bayram Aya və Günəşə olan inamlara, onların təriflənməsinə əsaslandığı üçün qədim dini inancları ifadə edir. Mərasimdə kollektiv oxuma tərzi əsas yer tutur və bu da ləzgilərin oxuma ənənələrini nümayiş etdirir.

Ləzgilərin “Çiçək” bayramı əsasən kənd əhalisi tərəfindən qeyd edilən mərasimlərə aiddir. Dağlardan, çəmənliklərdən müxtəlif şəfaverici çiçək və bitkilərin yığılması bayramın əsas səciyyəvi xüsusiyyətidir. Mahnı və rəqs yarışmasının keçirilməsi isə bayramın məzmununu özündə əks etdirir.

Yağış çox yağanda isə “Alapex” mərasimi keçirilirdi. “Alapex” mərasimi isə “Peşapay” mərasiminin əksi idi, yəni yağış əvəzinə Günəş çağırılırdı. Bu mərasim ən çox yay aylarında keçirilirdi və isti mövsümlərlə bağlıdır. Ümumiyyətlə, günəşi çağırma mərasimi Azərbaycan folklorunda da geniş yer tutur. Çünki qədim insanların inamına görə günəşdən yerə bərəkət gəlir. Günəşi çağırmaqla əlaqədar Azərbaycan folklorunda “Gün çıx”, “Qodu-qodu” kimi mahnılar geniş yayılmışdır.

Ləzgilərin əkinçilik təsərrüfatı ilə bağlı olan bayramlarından biri də “Sifte rqal (Сифте ргал)”, yəni “İlk şırım” bayramıdır. Bu mərasim baharın gəlişi ilə bağlıdır və əsasən yaz fəslində keçirilir. Bu bayram əkinçiliklə, şumlama ilə əlaqədar olduğu üçün əkinçilər mahnı, yəni havar oxuyur.

Ləzgi folklorunda ilk olaraq diqqəti cəlb edən bayatılardır. Bu folklor nümunəsinə həm Azərbaycan, həm də ləzgi folklorunda rast

gəlinir. Ləzgi dilində bayatı "bayadr" adlanır. Məzmun baxımından Azərbaycan bayatıları ilə oxşar olan bayadrlarda daha çox təbiət və məhəbbət mövzuları üstünlük təşkil edir.

Ləzgi xalqının zəngin folklor irsində bütün xalqlarda rast gəlinən atalar sözləri və tapmacalar da daxildir. Məişətdə əsasən qısa və lakonik şəkildə danışığa üstünlük verən ləzgilərin olduqca müdrikcəsinə söylənilən maraqlı atalar sözləri mövcuddur. Ləzgi folklorunda tapmacalar da əsas yer tutur və bunları "miskalar (мискьалар)" adlandırırlar. Ləzgi folklorunda rast gəlinən yanıltmaclar uşaq nitqinin inkişaf etməsi məqsədilə yaranmışdır. Ləzgi folklorunda nağıllar da xüsusi yer tutur və onlarda digər xalqlarda olduğu kimi, mifologiya və əfsanə elementləri üstünlük təşkil edir.

**2.2. "Ləzgi xalq mahnılarının lad-məqam və intonasiya xüsusiyyətləri"** adlanır. Bu paraqrafda ləzgi xalq mahnılarının xüsusiyyətlərindən bəhs edilir. Mahnı ləzgi etnik qrupun xalq yaradıcılığında ən mühüm və qədim janrlardan biridir. Məhz mahnılarda xalqın dünyagörüşü və psixologiyası, daxili aləmi, arzuları və tarixi inkişaf prosesi öz əksini tapmışdır. Belə ki, ləzgi xalq mahnılarının mövzu müxtəlifliyi Azərbaycan folklorunda mövcud olan bu janr nümunələri ilə yaxındır. Bu baxımdan yanaşsaq, ləzgi xalq mahnılarını şərti olaraq, aşağıdakı kimi təsnifata bölmək mümkündür:

- Əmək mahnıları;
- Mərasim mahnıları;
- Məişət mahnıları;
- Tarixi-qəhrəmanlıq mahnıları[43].

Əmək mahnıları xalq mahnı yaradıcılığının ən qədim növü kimi, ləzgi folklorunda da mühüm yer tutur. Onların əmək mahnıları dəqiq metro-ritmik vəhdəti, reçitativ başlanğıcın bitkinliyi ilə seçilir. Bir janr kimi çox sabit bir mövqeyə malik olan əmək mahnıları qrupu olduqca qədim, həmçinin nisbətən sonrakı dövrdə yaranmış nümunələri özündə ehtiva edərək, bütün xalq musiqisində mühüm yer tutur. Əmək prosesi ilə bağlı olan digər mahnılar "havazi"lər adlanır. Bunlar əsasən bağçılıqda, bostançılıqda çalışan qadınların ayrı-ayrı dəstələrə bölünərək oxuduqları mahnılardı. Çox zaman bu

---

[43] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

mahnıların oxunması prosesi yarışı xatırladırdı. Əmək mahnılarına havarlar da daxildir. Havarlar ilk şırım -"Sifte rqal (Сифте ргал)" bayramında ifa edilir və mövsümi mahnılara aiddir. "Hav" sözü ləzgi dilində "dörd şırım" deməkdir. Ləzgi folklorunda əmək mahnıları üçün solo və xor oxumasının növbələşməsi prinsipi birliyin rəmzi mənasını ifadə edir.

Təbiət, mövsüm və təqvimlə bağlı olan mərasim mahnıları mövzu rəngarəngliyi ilə fərqlənir. Azərbaycan xalq yaradıcılığında olduğu kimi, ləzgilərin də folklorunda da ən qədim qatlara məxsus olan toy mahnıları və yas-dəfn ağılarına rast gəlinir. Ləzgilərdə toy mərasim mahnıları xüsusi yer tutur. Toy mərasimində oxunan və ifa olunan mahnılar ləzgi xalqının həyatını, onların yaşayış tərzini, o cümlədən qadınlara qoyulan böyük hörməti özündə əks etdirir. Onlar əvvəllərdən mövcud olmuş və gəlinin evdən çıxarılmasından "dem"lərə kimi ifa olunan mahnılardır. Toy mərasim mahnılarının bəziləri nəsihət xarakterli, bəziləri isə gəlinə xeyir-dua vermək üçün oxunan mahnılardır. Ləzgi folklorunda toy mərasimləri poetik söz, musiqi və rəqs sənətlərinin elementlərini özündə birləşdirən janr kimi formalaşmışdır. Ləzgi toy mərasim mahnılarının əsas tərkib hissəsini bəyi, xüsusilə gəlini tərif edən mahnılar təşkil edir. Mərasim mahnıları arasında yas, dəfn mərasimində ifa olunan nümunələr özünəməxsus yer tutur. Ləzgilərdə vəfat edən şəxsin yaşından və sosial statusundan asılı olaraq, mahnıların xarakteri fərqlidir. Ləzgi xalqının yas mərasimləri azərbaycanlılar ilə oxşardır. Demək olar ki, kədərli, hüznlü şeirlərin, ağıların oxunması ləzgilərin yas mərasimlərində də müşahidə edilir.

Çox geniş yayılmış və say etibarilə çoxluq təşkil edən məişət mahnılarına aid edilən lirik mahnılar ləzgi folklorunun əsasını təşkil edir. Ləzgi folklorunda məhəbbət nəğmələri "lirli" ("лирли") adlanır. Ləzgi və Azərbaycan xalq mahnılarının oxşarlığı əsasən üslub xüsusiyyətlərində özünü göstərir. Belə ki, zəngin ornamentasiya (melizmatika) və ifa improvizasiyası, bir melodiya daxilində temp və ritmik müxtəliflik bu oxşarlığı mümkünləşdirir. Ləzgi xalqının lirik mahnılarının poetik məzmunu zəngin və müxtəlifdir. Bu mahnılarda lirik-məhəbbət, kədər, həsrət, nisgil, sevinc hisslərini əks etdirən mövzularla yanaşı, xalqın əsas sosial motivləri, ağrı və ümidləri də

öz əksini tapıb. Lirik mahnılardan məhəbbət mövzusunda olan xalq mahnıları daha çoxdur.

Ləzgi xalqının milli dəyərlərə və ənənələrə ciddi bağlılığı onların bir xalq kimi xarakterini formalaşdırmış və zarafat ruhunda yumorlu mahnıların məhdud sayda olmasını şərtləndirmişdir. Lakin buna baxmayaraq, yumorlu mahnılara ləzgi xalqının folklorunda rast gəlinir və əsasən məişət səviyyəsində olan mövzularla bağlıdır.

Ləzgi xalq mahnılarının lad-məqam və intonasiya xüsusiyyətlərinin təhlili zamanı müəyyən olundu ki, onlar üçün diatonik ladlar səciyyəvidir və təhlilə cəlb edilən mahnıların əksər hissəsi lidik, frigik, ionik, eolik kimi qədim diatonik ladlarda yazılmışdır. Mərasim mahnıları arasında toy mahnıları üstünlük təşkil edir və dövr dəyişdikcə, bu mahnıların bəziləri hələ də öz aktuallığını qoruyub saxlaya bilmişdir. Tarixi-qəhrəmanlıq mahnıları nisbətən məhdud saydadır. Ləzgi xalqının milli xarakterindən irəli gələrək, yumorlu, zarafat xarakterli mahnılar say etibarilə məhdud saydadır. Həmçinin, ləzgi xalq mahnılarının müəyyən hissəsi ilə Azərbaycan xalq mahnıları arasında intonasiya bağlılığı özünü göstərir. Məsələn, bunun ən qabarıq nümunəsi “Muleyli” xalq mahnısıdır ki, hər iki xalqda olan bu mahnılar arasında metro-ritmik xüsusiyyətlər, musiqi dili baxımından yaxınlıq nəzərə çarpır.

**2.3. “Ləzgi xalq rəqslərinin melodiya, lad-məqam və intonasiya xüsusiyyətləri”** adlı paraqrafda ləzgi rəqslərinin xüsusiyyətlərindən bəhs edilir. Rəqslər ləzgi xalqını xarakterizə edən əsas folklor nümunələridir. Ləzgi xalq rəqsləri janr, obraz-emosional məzmunu etibarilə çox zəngin və rəngarəngdir. Xalq mahnılarından fərqli olaraq, ləzgi rəqslərinin bədii spesifik xüsusiyyətləri bir çox amillər ifaçının yaşı və cinsi ilə təyin olunur. Ləzgi rəqslərinin hər biri sanki sənət əsəridir. Onlar üçün xalq xoreoqrafiyasına xas olan süjetli başlanğıc da səciyyəvidir. Rəqslər ləzgi dilində “kuler (кьуьлер)” adlanır. Xalq olaraq çevik, hərəkətli olan ləzgilərin musiqisi onların fəallığını, cəsurluğunu özündə əks etdirir. Ləzgi xalqının nümayəndələri rəqs sənətinə hədsiz dərəcədə məhəbbət bəsləyirlər. Belə ki, xalq rəqslərinin ritmləri və melodiyaları bir növ onların ruhunu ifadə edir. Təsadüfi deyildir ki, “Ləzginka” sədalarını eşidəndə hər bir kəs rəqs etməyə başlayaraq musiqiyə uyğun hərəkətlər edir. Ləzgi rəqslərinin

hərəkətli ritmi xalqın sanki daxilindən gələn hərəkətləri özündə əks etdirir. Ləzgi xalqının folklorunda rəqs mühüm əhəmiyyət kəsb edir. Belə ki, ləzgilərin bayram mərasimləri və kütləvi şəkildə keçirilən xalq şənlikləri hər zaman teatrlaşdırılmış musiqi nömrələri ilə müşayiət edilib.

Rəqs ləzgi folklorunda aparıcı rol oynayır. Qədim zamanlarda ləzgi xalq bayramları və el şənlikləri bir qayda olaraq teatrlaşdırılmış nömrələrlə müşayiət olunub. Buna nümunə olaraq göstərmək lazımdır ki, "Yaran suvar" (Bahar bayramı), "Tsukverin suvar" (Çicək bayramı"), "Karu" (Gilas bayramı"), "Sifte rqal" ("İlk şırım") və digər bayram mərasimlərində mahnıların ifası, at çapma yarışları, pəhləvanların çıxışı, kəndirbazlardan ibarət səhnəciklər ilə yanaşı, əksər hallarda rəqslər əsas yer tutaraq bütün tədbirləri tamamlayırdı. Bu baxımdan yanaşdıqda təsadüfi deyildir ki, ləzgi folklorunun öyrənilməsi prosesi elə bu xalqın yaradıcılığında əsas yer tutan rəqs sənətindən başlanmışdır. Hətta ləzgilərin qədim inanclarında da rəqs elementləri özünü göstərir. Belə ki, ləzgilərin əcdadları hesab edilən leglərdə vəfat etmiş insanın ruhunun yaşamasına inam mövcud idi və onlar çox zaman bu ruhu qartal formasında təsəvvür edirdilər. "Lekyer" ("Qartallar") adlı rəqs qədim ləzgilərin bu inancının göstəricisidir. Maraqlıdır ki, ləzgilərin rəqslərində olan bəzi hərəkətlər əksər hallarda göy üzündə qartalın uçmasının xatırladır. Xüsusilə, rəqslərin kulminasiya hissəsində deyilən "assa" sözləri sanki insan ruhunun yer üzündən ayrılaraq, səmaya qalxmasını təsvir edir. Ləzgilərin qədim dini təsəvvürlərə olan inamı müasir dövrümüzdə də öz təsirini saxlayır. Ləzgi folklorunda qartal müqəddəs bir varlıq hesab olunur və buna görə də rəqslərinin əksər hissəsi qartalın uçuşunu xatırladan şəkildə qurulmuşdur.

Ləzgi xalq rəqsləri xarakterinə və ifa xüsusiyyətlərinə görə bir neçə qrupa ayrılır:

- Qadın rəqsləri;
- Kişi rəqsləri;
- Say adları ilə bağlı olan rəqslər;
- Mərasim rəqsləri;
- Qəhrəmanlıq rəqsləri;
- Lirik rəqslər;
- Cüt rəqslər.

Rəqslərin (əsasən kişi rəqslərinin) bir çoxu iti templidir, enerjilir. Ləzgi rəqslərində xalqın xarakteri, hiss və duyğuları öz əksini tapmışdır. Qadın rəqsləri incə, təmkinli və plastikdir, kişi rəqslərinə isə canlılıq və güclülük xasdır. Ləzgi xalq rəqslərinin əksəriyyəti, o cümlədən həm qadın, həm də kişi rəqsləri solo xüsusiyyətlidir. Lakin cüt və xüsusilə də qrup şəklində ifa olunan rəqslərə də rast gəlinir. Ləzgilərdə lirik qadın rəqsləri, iti tempə əsaslanan kişi rəqsləri daha çox üstünlük təşkil edir. Belə ki, ləzgilərin əsasən dağlıq ərazilərdə yaşaması, döyüşkən ruhlu xalq olması, mental dəyərlərə bağlı olması rəqslərin xarakterində də öz əksini tapmışdır. Ləzgi rəqsləri ən çox mərasimlər zamanı kollektiv şəkildə ifa olunur. Melodiyanın diapazonu yuxarı registrləri əhatə edir və melodik hərəkət yuxarıdan aşağı istiqamətə doğru yönəlir. Dəyişkən ölçü və lad ləzgi rəqslərinin əsas xüsusiyyətidir. Ləzgi xalq rəqsləri mahnılarda olduğu kimi, diatonik ladlara əsaslanır. Belə ki, təhlilə cəlb edilən rəqslərin əksəriyyəti lidik, frigik, ionik, eolik, miksolidik kimi qədim diatonik ladlarda yazılmışdır. Diapazon baxımından xalis kvarta və nona intervalı həcmində olan rəqslərə daha çox rast gəlinir.

İfaçılıq baxımından ləzgi rəqsləri hərəkətli olması ilə fərqlənir. Hətta sakit, asta tempdə başlanan rəqslər getdikcə sürətlənməyə başlayır. Ləzgi rəqslərinin iti, sürətli tempə malik olması onları həm Azərbaycan, həm də respublikamızda yaşayan digər etnik qrupların rəqslərindən fərqləndirən əsas xüsusiyyətdir. Ləzgi xalq rəqslərilə Azərbaycan xalq rəqsləri arasında olan əlaqə əsasən təsnifatlaşmada, rəqslərin başlıqlarında və xarakterində, dəyişkən ölçüyə əsaslanmada nəzərə çarpır.

Dissertasiyanın **Nəticə** bölməsində dissertasiya Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi ləzgi azsaylı xalqının folklor musiqisinin hərtərəfli araşdırılması və mədəni inkişafının dinamikası haqqında mühüm nəticələr ümumiləşdirilir. Belə ki, ləzgi xalqının milli mədəniyyətinin inkişafı multikulturalizm ənənələri çərçivəsində araşdırılaraq özünəməxsus orijinal xüsusiyyətləri müəyyənləşdirilir. Bu zaman ləzgilərin daha çox yaşadığı Azərbaycan ərazilərinin təbii-coğrafi mövqeyi, tarixi inkişafı izlənilir və etnoqrafiyası, musiqi folkloru işıqlandırılır. Məlum olur ki, ləzgi etnik qrupunun folklor

musiqisində daha çox mahnı və rəqs janrlarına üstünlük verilir və bunlar xalqın milli mənsubiyyətinin əsas göstəricisi kimi müəyyən oluna bilər.

Eyni zamanda ləzgi xalqının folklor musiqisinin öyrənilməsi Azərbaycan etnomusiqişünaslığında etnik qrupların milli mədəniyyətinin öyrənilməsi sahəsinin əhəmiyyətini təsdiqləyir və dissertasiyanın istiqamətini nümayiş etdirir. Tarixi araşdırılma zamanı müəyyən olundu ki, əməksevər bir xalq olan ləzgilər əsasən təbiət mənzərələrilə əhatə olunmuş ərazilərdə məskunlaşmağa üstünlük vermişlər. Azərbaycanın əsasən Quba, Qusar, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala bölgələrində yaşayan ləzgilərin folkloru və xalq yaradıcılığının formalaşmasına təbii-coğrafi relyef təsir göstərmişdir. Eyni zamanda uzun illər boyu azərbaycanlılarla sıx təmasda olması hər iki xalq arasında etnomədəni bağların yaranmasına səbəb olmuşdur.

Tarixi mənbələrin araşdırılması zamanı ləzgilərin antropoloji cəhətdən Qafqaz irqinə aid olması və mənşəcə Qafqaz albanları ilə bağlılığı müəyyən edilmişdir. Hazırda ölkəmizin şimal-şərqində və Rusiya Federasiyasının tərkib hissəsi olan Dağıstanın cənub-şərqində yaşayan ləzgilərin köklərinin e.ə. IV əsrdən V əsrin birinci yarısına qədər müxtəlif adlara malik olan etnos qruplarının tərkibinə daxil olması və Qafqaz Albaniyasında bu birliklərin “lekl (лекl)” adı ilə tanınması tədqiqat işində ətraflı işıqlandırılmışdır.

Azsaylı xalq olmasına baxmayaraq, ləzgilərin zəngin və çoxşaxəli folklora, milli mədəni irsə malik olması tədqiqat zamanı müəyyən edilmişdir. Həmçinin, ləzgi etnik qrupunun etnoqrafiyası və mədəni inkişafının dinamikasında intensivlik müşahidə olunmuşdur.

Tədqiqat prosesində ləzgilərin malik olduqları müəyyən sahələr işıqlandırılmışdır. Belə ki, ləzgilərin məişəti, həyat tərzi, milli mədəniyyətlərinin müxtəlif sahələri (xalçaçılıq, toxuculuq, mətbəx, geyim və s.) araşdırılaraq, onların bir xalq kimi məxsus olduğu səciyyəvi keyfiyyətləri işıqlandırılmışdır.

Musiqi folklorunun araşdırılması istiqamətində ləzgilərin istifadə etdikləri musiqi alətləri də nəzərdən keçirilmiş və sistemləşdirilmişdir. Müəyyən edilmişdir ki, ləzgilərin musiqi alətləri əsasən iki qrupa ayrılır:

1. Qədim musiqi alətləri – “çunqur (чуьнгуьр)” (ləzgilərin saza oxşayan musiqi aləti) və “kfil (кфил)” (nəfəs musiqi aləti);

2. Müasir dövrdə yaranan musiqi alətləri – “ taft (taft)” (“bərk döymək” mənasını verir), “çaqan (чагъан)” (qarmon alətini xatırladır) və “ daldam (далдам)” (nağara) musiqi alətləri.

Tədqiqat zamanı qədim adət-ənənələri əks etdirən ləzgi xalq mərasimlərinin iki hissəyə bölünməsi müəyyən edildi:

1. Mövsümlə bağlı;
2. Əmək bayramlarını əhatə edən mərasimlər.

Mərasimlərin əsas oxşar xüsusiyyəti isə teatral elementlərə malik olub, mahnı və rəqslərlə müşayiət olunmasıdır.

Bununla yanaşı, söyləcilər ləzgilərə məxsus tədbirlərində tütək, balaban, tar, kamança kimi Azərbaycan xalq çalğı alətlərindən istifadə etməkləri nəzərə çatdırılmışdır.

Tədqiqat işində ləzgilərin folklor yaradıcılığından bəhs edərkən müxtəlif mərasimlər, xalq mahnı və rəqslərinin əsas janr sahələri olması qənaətinə gəlinmişdir. Nəzərə çatdırılmışdır ki, ləzgilərin folklorunda islamaqaədərki dövrdə yarandığı ehtimal olunan “Şarvili” eposu mühüm yer tutur. Məzmun baxımından Azərbayan xalqının “Dədə Qorqud” dastanını xatırladan bu eposun əsas fərqi nəsr şəklində qurulmasıdır. Qədim ləzgilərin dünyagörüşü, mərdliyi və igidliyinin tərənnüm olunduğu bu eposun Azərbaycan xalqına xas olan “Ağ atlı oğlan haqqında əfsanə” ilə uyğunluğu da müəyyənləşdirilmişdir.

Tədqiqat zamanı ləzgilərin milli bayramlarını və mərasimlərinə xas adətləri müasir dövrə qədər saxladıqları aşkar edilmişdir. Ləzgilərin qədim mərasimlərinin tədqiqi zamanı onların səciyyəvi xüsusiyyətləri müəyyən olunaraq, sistemləşdirilmişdir. Tədqiqatın əsas istiqamətini təşkil edən ləzgi xalq mahnı və rəqslərinin melodiya, lad-məqam və intonasiya xüsusiyyətlərinin araşdırılması zamanı nəzəri təhlildən irəli gələn qənaətlər əldə edilmişdir. Bunlar ləzgilərin folklor musiqisinin aşkar olunan fərdiliyini nümayiş etdirir.

Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi olan ləzgi musiqi folklorunun öyrənilməsi ölkəmizdə multikulturalizm dəyərlərinə əhəmiyyət verilməsini nümayiş etdirir. Eyni zamanda tədqiqat prosesi zamanı müəyyən olunmuşdur ki, ləzgilərin adət-ənənələri Azərbaycan

xalqı və ölkəmizdə məskunlaşan digər etnik qruplarda olduğu kimi eyni səviyyədə və humanizm meyarları əsasında inkişaf etmişdir. Yerli əhali ilə daim yaxın təmasda və mehriban qonşuluq şəraitində yaşayan ləzgilərin folklor musiqisi qarşılıqlı təsirə məruz qalsa da, onlar öz səciyyəvi xüsusiyyətlərini saxlamağa müvəffəq olmuş və Azərbaycan milli mədəniyyətinin tərkib hissəsi kimi inkişaf dinamikasını davam etdirmişlər. Ölkəmizdə yaşayan ləzgilərin folklor ənənələrini Azərbaycan xalqının milli mədəniyyətindən kənarda təsəvvür etmək mümkün deyildir. Bu mənada ləzgi azsaylı xalqının folklor musiqisinin qədim ənənələrə əsaslanaraq inkişaf etməsi Azərbaycan mədəniyyəti kontekstində multikulturalizm və tolerantlıq dəyərlərinin qorunmasının bariz nümunəsidir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


3. Мусаева, Т.Х. Взаимная связь мультикультурализма фольклором в Азербайджанской Республике // “Folklor və dövlətçilik” mövzusunda III Respublika Elmi konfransının materialları, – Bakı: – 3 noyabr, – 2018, – s.340-343.
4. Musayeva, T.X. Ləzgi xalqının mərasim xüsusiyyətləri və inanclarına bir nəzər // Doktorantların və və gənc tədqiqatçıların XXII Respublika Elmi konfransının materialları, – Bakı: – 22-23 noyabr, – 2018, – c.2. – s.197-204.
5. Musayeva, T.X. Ləzgi xalq mahnılarının xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2022. №3 (16), – s.197-204.
6. Musayeva, T.X. Azərbaycan mədəniyyətində ləzgi etnik qrupun folklor musiqisi // – Bakı: Qərbi Kaspi Universitetinin Elmi Xəbərləri, – 2022. №2, – s.40-44.
7. Musayeva, T.X. Ləzgi xalq rəqslərinin melodiya, lad-məqam və intonasiya xüsusiyyətləri // – Bakı: Sənət Akademiyası, – 2021. №4 (19), – s.161-170.
8. Musayeva, T.X. Ləzgi etnik qrupun etnoqrafiyası və musiqi tarixinə nəzər // 12th İnternational Conference on Culture and Civilization, – Lahıc, İsmayıllı: – 21-22 iyun, – 2022, – s.285-289.
9. URL:https://tr.europenjournal.com/_files/ugd/614b1f_609ee93669804ecfaeb076361063f239.pdf

10. Мусаева, Т.Х. Особенности культуры малочисленного лезгинского народа, проживающего в Азербайджане // Материалы XIV Международной научной конференции «Искусство глазами молодых», – Красноярск: – 20-21 апреля, – 2022, – s.125-128.
11. Musayeva, T.X. Zaqatala şəhərində yaşayan ləzgı azsaylı xalqların musıqı folkloru // "Qloballaşan dünyada musiqi ənənələri" mövzusunda II Beynəlxalq elmi-praktiki konfransının materialları, – Bakı: – 14-16 noyabr, – 2022, – s.119-125.
12. Musayeva, T.X. Ləzgi azsaylı xalqının folklor musiqisinin xüsusiyyətləri // "Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemlər" XXI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: – 26 aprel, – 2022,– s.40-47.
13. Мусаева, Т.Х. Этнография и динамика культурного развития этнической группы лезги, проживающей в Азербайджане // – Москва: Музыка и время, – 2023. № 2, – s. 31-34. URL: http://music.tgizd.ru/ru/arhiv/21795
14. Musayeva, T.X. "Ləzgi mərasimlərində ifa olunan xalq mahnılarının lad-məqam və intonasiya xüsusiyyətləri // – Naxçıvan: Axtarışlar, – 2023. №1 (17), – s.214-219.
15. Musayeva, T.X. Ləzgilərin məskunlaşdığı ərazilərdə tarixi inkişafının xüsusiyyətləri // – Bakı: Sənət Akademiyası, – 2023. №2 (22), – s.63-69.
16. Musayeva, T.X. Folklore of lezgi ethnic group in the culture of the modern period of the republic of Azerbaijan // – Казахстан, Алматы: ENDLESS LIGHT in SCIENCE, Международный научно-практический журнал, – 2023. – s.461-464. URL: https://elibrary.ru/item.asp?id=50446708
17. Musayeva, T.X. Ləzgi xalq mahnılarının səciyyəvi xüsusiyyətləri // – Bakı: Konservatoriya, – 2023. №2 (57), – s. 65-77. URL: http://konservatoriya.az/?p=7689
18. Musayeva Özçelik, T.X. Folklore music of Lezgi ethnic people as abandoned part of Azerbaijan national culture// – Türkiyə: Journal for Interdisciplinary Art and Education (JIAE), (Dergi Park). Volume: 6, Issue: 4, December 2025

Dissertasiyanın müdafiəsi ______ _________ 2025-ci il tarixində saat ______ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı, Ş.Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ______ _________ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.09.2025

Kağızın formatı: 60x84 1/16

Həcmi: 44069 işarə

Tiraj: 100